# Sona VƏLİYEVA-60



Hörmətli Sona xanım!

Sizi - istedadlı şair və ədəbiyyatşünas alimi yubileyiniz münasibətilə təbrik edirik.

Siz bədii yaradıcılığa məktəb illərində başlasanız da, ilk kitabınız - "Çəhrayı rəngli dünyam" 2007-ci ildə nəşr edilmişdir. Sonra "Arazbarı", "Dünya Tanrı biçimdədir" və "Yağışda islanan dua" adlı daha şeirlər kitabınız işıq üzü görmüşdür. Şeir kitablarınız Türkiyə, Fransa, İspaniya, Gürcüstan, Qırğızıstan, Serbiya kimi xarici ölkələrdə də çap olunub.

Siz ölkəmizin həyatında baş verən ictimai hadisələrə, həmçinin dəyərli ədəbi və elmi mətnlərə diqqətlə yanaşan fəal qələm sahiblərindənsiniz. Seçilmiş publisistik yazılarınız "Zaman xəbərsiz ötdü" (2012) və "Ruhun yaddaşı" (2017) adlı kitablarınızda toplanmışdır. Siz 1881-ci ildə təsis olunmuş və 1919-cu ilə qədər fəaliyyət göstərmiş tarixi "Kaspi" qəzetini 1999-cu ildə yenidən bərpa edərək, uzun müddət qəzetin ideya rəhbəri kimi ona himayədarlıq etmisiniz.

Siz qələminizi nəsrdə də sınamısınız. "İşığa gedən yol" adlı tarixi romanınız sizə geniş oxucu auditoriyası qazandırmışdır. Roman 2016-cı ildə Mətbuat Şurasının Ali Media Mükafatına layiq görülmüş, 2017-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin "Qızıl kəlmə" mükafatının "Ən yaxşı roman" nominasiyasının qalibi olmuşdur.

"Azərbaycançılıq ədəbi-estetik təlim kimi" (2002) və "Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideologiyası" (2003) adlı kitablarınız Azərbaycanın dövlətçilik tarixinin və azərbaycançılıq ideologiyasının ədəbi-estetik təlimə çevrilməsi prosesinin təhlilinə və elmi şərhinə həsr olunmuşdur. "Hüseyn Cavidin poetikası" adlanan elmi işinizdə Hüseyn Cavid poetikasını və poetik dünyagörüşünü Azərbaycan ədəbiyyatında ilk dəfə olaraq kompleks şəkildə tədqiqata cəlb etmisiniz. Sizin təşəbbüsünüzlə "Hüseyn Cavid. Əsərləri" (2013) adlı kitab Türkiyə türkcəsinə uyğunlaşdırılaraq, ilk dəfə qardaş ölkədə böyük tirajla nəşr edilmişdir. Ulu öndər Heydər Əliyevin göstərişi ilə Hüseyn Cavidin cənazəsinin qalıqlarının uzaq Sibirdən vətənimizə qaytarılması ilə bağlı sizin təşkilatçılığınızla "Hüseyn Cavid. Vətənə qayıdış" (2014) respublika yazı müsabiqəsi keçirilmiş, toplanan çoxsaylı məqalələr sizin redaktorluğunuz ilə xüsusi nəşrə hazırlanmışdır. Məhz "Kaspi nəşrləri" seriyasından "Hüseyn Cavid. Vətənə qayıdış" (2015) foto-albomu işıq üzü görmüşdür. Son illərdə qələmə aldığınız "Hüseyn Cavid sənətinin qüdrəti" (2018), "Müasirləri Hüseyn Cavid haqqında" (2018) "Hüseyn Cavid və müasirləri" (2019) və "Hüseyn Cavid ədəbi irsinin poetikası" (2019) adlı daha dörd kitab da Azərbaycanın elmi və ədəbi ictimaiyyətinə təqdim edilmişdir.

Siz 1984-cü ildə indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini fərqlənmə diplomu ilə bitirərək, təyinatla Üzeyir Hacıbəyov adına Naxçıvan Musiqi Texnikumuna müəllim göndərilmiş və 1994-cü ilə qədər orada müəllim kimi əmək fəaliyyət göstərmisiniz. Texnikumda işlədiyiniz illərdə dövri mətbuatda bədii və publisistik yaradıcılığınızı davam etdirmisiniz. Sonrakı illərdə "Səs" qəzetində müxbir, "Kaspi" qəzetinin təsisçisi və rəhbəri, Milli Televiziya və Radio Şurasının üzvü, həm də Şura sədrinin müavini olmusunuz. 2016-2019-cu illərdə Azərbaycan Dillər Universitetinin "Azərbaycan ədəbiyyatı" kafedrasının müəllimi kimi fəaliyyət göstərmiş, 2018-ci ildə Özbəkistan Respublikası Ürgənc Dövlət Universitetinin Fəxri professoru seçilmisiniz. Filologiya elmləri doktorusunuz.

2005-ci ildə səmərəli yaradıcılıq fəaliyyətinizə görə "Tərəqqi" medalına, 2012-ci ildə isə jurnalistika sahəsindəki xidmətlərinizə görə "Əməkdar jurnalist" fəxri adına, Ümumdünya Türk Xalqları Konqresinin qızıl medalına, TÜRKSOY-un "Molla Pənah Vaqif" medalına, Qırğızıstan Milli Yazıçılar Birliyinin "Qızıl qələm" mükafatına layiq görülmüsünüz.

Hörmətli Sona xanım!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**